**Respublika.** - 2024.- 11 oktyabr. - № 223. - S. 6.

# Pre-COP29: İqlim dəyişmələri ilə mübarizədə daha ambisiyalı hədəflərə doğru

**Aygün İbrahimova**

***Oktyabrın 10-da Bakıda Heydər Əliyev Mərkəzində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı ərəfəsində keçirilən Pre-COP29 tədbiri "Ambisiyaların gücləndirilməsi və fəaliyyətin təmin edilməsi" devizi ilə keçirilib. Tədbirdə ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı müraciəti səsləndirib. Müraciətdə qeyd edilib ki, Azərbaycan kiçik ada dövlətlərinə kömək etməyi özünə mənavi borc hesab edir. "COP29 Sədrliyi "Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutaraq bütün maraqlı tərəflərlə konstruktiv ruhda və şəffaf şəkildə əməkdaşlıq edir, çoxsaylı səfərlər həyata keçirir və narahatlıqları nəzərə almaq üçün hamını dinləyir. Biz inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün iqlim dəyişmələrinin səbəb olduğu çağırışların həllini prioritet olaraq müəyyənləşdirmişik. Azərbaycan bu dövlətlərə kömək etməyi özünə mənavi borc hesab edir və onlara həm maddi, həm də siyasi, o cümlədən Millətlər Birliyi təşkilatı çərçivəsində dəstəyini göstərir. Göstərilən səylərin davamlılığını təmin etmək məqsədilə BƏƏ, Azərbaycan və Braziliya tərəfindən COP28, COP29 və COP30-un sədrləri qismində "İqlim Troykası" təsis edildi".***

Bildirilib ki, COP29-da iqlim dəyişmələri ilə mübarizə üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədi BƏƏ konsensusunun həyata keçirilməsi üçün hamının üzləşdiyi çağırışların miqyasına uyğun olaraq maliyyə ayırmalarını təmin etməlidir.

BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri və Abu-Dabi Milli Neft Şirkətinin (ADNOC) baş icraçı direktoru Sultan Əl-Cabir Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflərin İlkin Konfransındakı (Pre-COP29) çıxışında deyib ki, dünyaya həm yüngülləşdirmə, həm də uyğunlaşma üçün sərmayələri stimullaşdıracaq yüksək etibarlı karbon bazarları lazımdır. "Biz maliyyə ayırmalarını iqlim dəyişmələrinə qarşı dayanıqlılığı artırmaq və onun təsirlərindən bərpa olmaq üçün ən həssas təbəqələri təmin etməliyik. Və əvvəlki öhdəliklər yerinə yetirilməlidir".

Onun sözlərinə görə, biz daha gecikmələrə yol verə bilmərik. "Yüngülləşdirmə və uyğunlaşmadan söz açıldıqda, biz onları bərabər olaraq nəzərdən keçirməliyik. Tərəflər uyğunlaşmanın iki dəfə artırılması, maliyyələşdirmə və tam maliyyələşdirilən strategiyaların öz milli uyğunlaşma planlarına daxil edilməsi məqsədinə nail olmalıdırlar".

COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev qlobal iqlim dəyişmələrinin fəsadları fonunda Azərbaycanda görülən tədbirlərdən danışaraq bildirib ki, fermerlərin bu problemdən mümkün qədər qorunması istiqamətində dövlət tərəfindən bir sıra imkanlar yaradılır. Nazirin sözlərinə görə, bu mənada Azərbaycan, BƏƏ, Braziliyanın iştirakı ilə qurulan COP Sədrlikləri Troykası vacib önəm kəsb edir.

Avropa komissarı Vopke Hoekstra çıxışında iqlim dəyişikliyi üzrə tədbirlərin sürətləndirilməsinin vacibliyinə toxunub: "Biz həm iqlim dəyişikliyinin fəsadları, həm də ölkələrin həyata keçirəcəyi tədbirlərin məcmusundan xəbərdar olmalıyıq. Üç ay boyunca keçirdiyimiz sorğunun nəticələri göstərir ki, hər kəs bizdən daha cəsarətli addımlar gözləyir. 2040-ci ilədək bu sahədəki hədəflərimizin 90 faizinə nail olmalıyıq. İqlim dəyişikliyi ilə mübarizə sahəsində müəyyənləşdirilən hədəflərin iclasına növbəti ilin birinci yarısından başlanılacaq".

Sinqapurun Davamlılıq və Ətraf Mühit naziri Qreys Fu söyləyib ki, iqlim dəyişikliyi ilə mübarizə layihələrinin tətbiqində böyük risklər var. "Hesab edirik ki, burada enerji dəyişikliyinə dözümlülüyü təmin edən həllər mövcuddur. Biz enerji şəbəkələrimizi ABŞ və digər tərəfdaşların köməyi ilə gücləndirməliyik. Sinqapurda akkreditə olunan "yaşıl layihə"lərə 5 milyard ABŞ dolları həcmində dəstək olur. Biz, eyni zamanda bu sahəyə dəstək üçün özəl şirkətlərin də dəstəyindən istifadə etməliyik. Sinqapurda koalisiya çərçivəsində keçid kreditləri təşəbbüsü irəli sürülüb. Bu kimi təşəbbüslər növbəti layihələrin yaranmasına öz töhfəsini verəcək. Hesab edirik ki, iqlim dəyişikliyi sahəsində hədəflərə nail olmaq üçün effektiv sistem formalaşdırılmalıdır".

Keniyanın İqlim dəyişikliyi, Ətraf mühit və Meşə Təsərrüfatı Nazirliyinin Departament direktoru Festus N'geno "Troyka ölkələri"nin "1,5 dərəcə Selsi missiyası üçün Yol xəritəsi" mövzusunda keçirilən panel sessiyada bildirib ki, ölkəsində 2023-2030-cu illəri əhatə edən iqlim dəyişikliyi ilə mübarizə strategiyası qəbul olunub. Onun sözlərinə görə, beynəlxalq əməkdaşlıq iqlim dəyişikliyi ilə mübarizədə ən vacib alətlərdən biridir. Bu istiqamətdə COP29 olduqca ideal platformadır. "İqlim dəyişikliyi ilə mübarizə

məsələsi qlobal səviyyədə daha geniş yayılmalıdır. Əsas məqsədimiz ondan ibarətdir ki, Afrika ölkələri arasında geniş əməkdaşlıq yaransın. Bir çox hallarda regional iqtisadiyyatların malik olduğu strategiya ayrı-ayrı layihələrin uyğunlaşdırılmasına imkan verir. Bizim ölkəmizdə iqlim dəyişikliyi ilə mübarizə ilə bağlı 2023-2030-cu illər strategiyası qəbul olunub. Hesab edirik ki, istənilən halda ölkələrin korporativ adaptasiya planları olmalı, qida təhlükəsizliyi strategiyası hazırlanmalıdır".

BMT-nin Birləşmiş Şəhərlər və Yerli Hökumətlər Beynəlxalq Təşkilatının baş katibinin xüsusi müşaviri Firadous Oussidhoum deyib ki, noyabrda təşkil olunacaq COP29-un gündəliyində sosial məqamların olduğu sevindirici haldır. Burada söhbət təkcə iqlim dəyişikliyi ilə mübarizə məqsədilə vəsait toplanmasından yox, həm də gələcək nəslin bu problemin fəsadları ilə üzləşməsinə imkan verməməyindən gedir. Hesab edirik ki, iqlim dəyişikliyi sosial transformasiya ilə müşayiət olunmalıdır".

Azərbaycanın xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev "Pre-COP29: Ümumdünya İqlim Şəffaflığına Qlobal Dəstəyin Gücləndirilməsi" adlı panel müzakirədə bildirib ki, Bakıda keçiriləcək COP29-un iştirakçısı olan tərəflər inkişaf etməkdə olan ölkələrə dəstək göstərilməsi istiqamətində tədbirlər həyata keçirməlidir. "Biz COP29-da iştirak edəcək bütün tərəfləri İqlim Şəffaflığına dair Yekun Razılaşmanı imzalamağa çağırırıq. Onu da qeyd etmək istəyirəm ki, oktyabrın 29-dan etibarən nazirlər səviyyəsində Qlobal İqlim Şəffaflığı üzrə görüş keçiriləcək. Eyni zamanda bu müzakirələr Qlobal İqlim Şəffaflığına dair yekun strategiyanın hazırlanmasına kömək edəcək". Baş danışıqçı, həmçinin tərəfdaşlarla birgə həyata keçirilən səylərə qlobal səviyyədə dəstək verilməsində maraqlı olduqlarını deyib: "Bu, iqlim şəffaflığına nail olunması istiqamətində hər birimiz üçün olduqca önəmli bir dövrdür. Ona görə də bütün tərəfləri iqlim şəffaflığı sahəsində daha effektiv nəticələrə nail olunması üçün əməkdaşlığa dəvət edirik. Bu səbəbdən də hesab edirəm ki, bütün maraqlı subyektlər malik olduqları resursları real nəticələrə nail olmaq üçün effektiv şəkildə istifadə etməlidir". Onun sözlərinə görə, COP29 Sədrliyində gender məsələsi təmin olunub. Belə ki, 3 qadın və 3 kişi COP29 Sədrliyində yer alır.

Avropa İttifaqının (Aİ) iqlim fəaliyyəti üzrə komissarı Vopke Hoekstra qeyd edib ki, Avropa İttifaqı iqlim elminə geniş maliyyə dəstəyi təqdim edib. "Xatırlatmaq istəyirəm ki, mövcud iqlim vəziyyətini dəyişdirməyə başlamaq üçün elmə əsaslanmaq son dərəcə vacibdir. Buna görə də hər bir halda nə etməli olduğumuzu izah edəcək modelçilər və mütəxəssislərin iştirak etdiyi bir sıra layihələri maliyyələşdirdik". Onun sözlərinə görə, həmçinin bütün dünya üçün bu məsələdə hansı tədbirlərin görülməsi son dərəcə vacibdir. "Biz ancaq Avropa İttifaqı çərçivəsində bu ambisiyalı yolda irəliləməyə davam etməli deyilik, həm də əlimizdən gələni etdiyimizə əmin olmaq üçün həm burada, həm də dünyada bu məsələ üzrə çox yaxından çalışmalıyıq".

COP29-un prezidenti Muxtar Babayev COP29 çərçivəsində İnsan İnkişafı Günü keçiriləcəyini deyib. "Bütün tərəfləri cəlb etməklə insan inkişafı, irriqasiya və gənclərlə bağlı tədbir olacaq. Biz ambisiyaları genişləndirməli, ölkələrə istixana qazlarını azaltmalarına imkan yaratmalıyıq. Şəffaflıq inam və etibar quruculuğu istiqamətində vacib addımdır. Bizim fəaliyyətimiz koordinasiyalı olmalı, iqlim dəyişikliyi ilə mübarizəyə maliyyə cəlb etməliyik. Bizim fəaliyyətimiz iqlim dəyişikliyinin fəsadlarının aradan qaldırılmasına hesablanmalıdır. İqlim dəyişmələri ilə mübarizə fondunun yaradılması dövlət və özəl tərəfləri bir araya gətirəcək".

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) sənaye və qabaqcıl texnologiyalar naziri və COP28-in Prezidenti Sultan Əl-Cabir vurğulayıb ki, COP29 ekologiyanın qorunması istiqamətində harmoniya yaratmalı, bir körpü rolu oynamalıdır. Düşünürəm ki, burada müzakirə olunan səylər öz bəhrəsini verəcək. Dünyanın ən böyük iqlim üzrə tədbiri hər bir ölkənin üzərinə düşən işləri açıq şəkildə müzakirə etməyə şərait yaradır. Beynəlxalq əməkdaşlıq hər bir səviyyədə mühümdür. Bu əməkdaşlıq çərçivəsində qabaqcıl təcrübələri paylaşmalı, texnologiyaları tətbiq etməliyik. İnvestisiyalar karbonsuzlaşmağa yatırılmalıdır. Biz real iqlim dözümlülüyü yaradırıq və karbon qazının azaldılması istiqamətdə addımlar atırıq.

BMT Baş katibinin birinci müavini Amina Mohammed qeyd edib ki, COP29 kollektiv məqsədin müəyyənləşdirilməsi istiqamətində bir sınaqdır. Dünyanın belə tədbirlərə böyük ehtiyacı var. Qlobal dünya bacardığımızı görməlidir. Qarşıdakı aylar çox önəmlidir. Cəsarətli olmalı, fəaliyyəti gücləndirməliyik. Geriyə yol yoxdur, yalnız irəli gedəcəyik. Troyka bizdən NDC ilə bağlı koordinasiya olunmuş dəstək tələb edir. Biz lazım olan dəstəyi üzərimizə götürməklə bağlı bildiririk ki, bütün sektorlar hökumət səviyyəsində əməkdaşlıq etsinlər. Bütün tərəfdaşları dəstək göstərmək üçün bizə qoşulmağa səsləyirəm. Bizim vaxtımız tükənir. Beynəlxalq ictimaiyyət olaraq öhdəliklər götürmüşük. Biz milli öhdəliklərin yerinə yetirilməsinə baxacağıq. Troyka çərçivəsində milli öhdəliklərin necə həyata keçirilməsini monitorinq etmək və milli iqtisadiyyatlardakı dəyişiklikləri izləmək niyyətindəyik.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil qeyd edib ki, hər hansı bir işdə nəticə əldə etmək yalnız əməkdaşlıq çərçivəsində mümkündür: "Biz COP29 çərçivəsində iqlim problemlərinin təsir etdiyi bütün sahələrdə yeni həll yolları tapmaq niyyətindəyik. COP29 yeni həll

yolları tapmaq üçün stimullaşdırıcı rol oynamalıdır. Paris Sazişində qeyd olunanlar bütün ölkələrin gələcək ekologiya siyasəti üçün xəritədir. Azərbaycanda keçirilən COP29 isə bu xəritəyə işıq salacaq".

Braziliyanın Xarici İşlər Nazirliyinin İqlim, enerji və ətraf mühit üzrə katibi Andre Korrea do Laqonun sözlərinə görə, müşahidələr göstərir ki, çətin durumdayıq, ciddi parçalanma, pərakəndəlik var. BƏƏ konsensusu qiymətləndirilir, Bakıdan isə yüksək nəticələr gözlənilir. "Beynəlxalq əməkdaşlıq istiqamətində bizə güvənə bilərsiniz. Ümumilikdə gördüyümüz işlər çoxtərəfliliyi təşviq etməlidir".

COP29-un İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarainin sözlərinə görə, tərəflərin Paris Sazişinin şərtlərinə əməl etməsi üçün onlara dəstək göstərmək vacibdir. "Biz prosesin inklüziv şəkildə həyata keçirilməsinə imkan yaratmalıyıq. Regionlar və şəhərlər ambisiyalarını genişləndirə, vətəndaş cəmiyyətləri və yerli icmalar milli iqlim dəyişikliyi planlarının icrasına çox böyük töhfə verə bilərlər. Biz gələcək nəsillərə təmiz və sağlam gələcək ötürmək istəyirik. Yeni imkanların yaradılması bizim üçün vacibdir. İqlim dəyişikliyi ilə mübarizədə dövlət-özəl sektor tərəfdaşlığı çox önəmlidir".

Daha sonra Pre-COP29 çərçivəsində Azərbaycanla Braziliya arasında "Bakıdan Belemə (B2B) İqlim Tərəfdaşlığı" üzrə (Memorandum of Understanding on the "Baku to Belem (B2B) Climate Partnership") Anlaşma Memorandumu imzalanıb. Sənədi COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və Braziliyanın Xarici İşlər Nazirliyinin İqlim, Enerji və Ətraf Mühit üzrə Katibi Andre Correa do Lago imzalayıblar.